# VƏFALI VƏ CƏSUR YOLDAŞIN MƏDHI

<"xml encoding="UTF-8?>

YETMİŞ SƏKKİZİNCİ HEKAYƏT

VƏFALI VƏ CƏSUR YOLDAŞIN MƏDHI

Malik Əştər Əli (əleyhissalam)-ın səmimi, pak və şücaətli dostlarından idi. Elə bir dost ki, Əli (əleyhissalam) bəzi vaxtlar öz yoldaşlarına buyururdu:

“Kaş sizin aranızda iki nəfər Malik Əştər kimi adamım olaydı.” mən Peyğəmbər səlləllahu əleyhi və alihi və səlləm üçün necə idimsə Malik də mənim üçün o cür idi. İmam Əli (əleyhissalam) öz danışıqlarının birində bu qəhrəman və cəsurun haqqında belə buyurur:

Allah ona xeyr versin ki, əyrilikləri düzəltdi və xəstələri müalicə etməyə başladı, sünnəti ayağa qaldırdı, fitnəni arxada qoyub imtahanlardan qəbul olundu və təmiz geyim az eyb ilə bu dünya ilə vidalaşıb əbədi həyata qovuşdu. Həmçinin, həyatın pisliyindən azad oldu. O Allah qarşısında öz məs”uliyyətini layiqincə yerinə yetirdi, Allaha günah etməkdən çəkindi.

O getdi lakin camaatı bir neçə yol ayrıcında qoydu və onlar da onun olması üzündən sərgərdanlıq bataqlığında batdılar.

Malik Əştər Əli (əleyhissalam) tərəfindən Misirin valisi təyin edilmişdi, Misirə sarı getdiyi zaman Müaviyənin məxfi muzduru tərəfindən zəhərli bal ilə şəhadətə çatdı. Bu böyük insanın şəhadət xəbəri Əli (əleyhissalam)-a çatdıqda o Həzrət buyurdu:

“Malik?! Malik kim idi? And ola Allaha, əgər dağ idisə yeganə və yüksək bir dağ idi. Əgər daş idisə elə möhkəm və hündür idi ki, heç kəs onun ətəyinə çatmazdı və heç bir yüksəyə uçan quş ”.belə onun göylərə ucalmış zirvəsində qanad çala bilməzdi